# FƏNDAXİLİ ƏLAQƏDƏN İSTİFADƏ PROBLEMİNİN KURİKULUM MATERİALLARINDA, PROQRAMLARINDA, DƏRSLİKLƏRDƏ, DƏRS VƏSAİTLƏRİNDƏ QOYULUŞU

**Sürəyya Şükürova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: sureyya.shukurova@bk.ru

**Rəyçilər:** *tarix ü.fəls.dok., dos.* S. Həziyeva,
*ped.ü.fəls.dok., dos.* T. İsayeva

***Açar sözlər:*** *müəllim, kurikulm, təhsil planı, kurslararası əlaqələr, pedaqoji fəaliyyət, dərslik, təhsil sistemi*

***Ключевые слова:*** *учитель, куррикулум, план образования, межкурсовые связи, педагогическая деятельность, учебник, образовательная система*

***Key words:*** *teacher, curriculum, education plan, inter-course relations, pedagogical activity, textbook, education system*

"Kurikulum" latın sözü olub, mənası "kurs", "yol" deməkdir. Xarici pedaqoji ədəbiyyatlarda göstərildiyi kimi, kurikuluma aid biliklərin təşəkkül tapması və inkişaf etməsi üçün 30 ilə yaxın bir vaxt sərf olunmuşdur. 1918-ci ildə ilk kurikulumlar yaranmışdır. Artıq ötən əsrin 60-70-ci illərində dünyada, xüsusən ABŞ-da kurikulum ideyaları genişlənmiş, bir nəzəriyyə kimi formalaşmışdır. Kurikulum hərəkatı kimi genişlənən bu təhsil dalğası dünyanın inkişaf etmiş ölkələrində də yayılmış, mütərəqqi təhsil təcrübəsi kimi özünün təsdiqini daha geniş miqyasda tapmışdır.

Azərbaycanda kurikulum termini ötən əsrin 90-cı illərinin sonundan etibarən istifadə olunmağa başlamışdır. İlk vaxtlar "təhsil planı" kimi tərcümə olunaraq istifadə edilsə də, sonralar araşdırmalarda kurikulum kimi işlənmiş, son illərdəki hüquqi-normativ sənədlərin dilində də eyni ilə həmin anlayış saxlanılmışdır.

Kurikulumun mahiyyəti haqqında yanaşmalar müxtəlif olmuşdur. Hər kəs öz ölkəsinin ehtiyacları baxımından ona yanaşmış, hazırladığı nümunələrdə zəruri tələbatları nəzərə almışdır. Azərbaycan pedaqoji fikrində isə bu belə qəbul olunmuşdur: "Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir".

90-cı illərin sonunda orta təhsil pilləsindəki vəziyyətin ciddi monitorinqi göstərdi ki, son illərdə ölkədə bəzi yeni tipli orta təhsil müəssisələrinin yaradılmasına, bir qisim orta məktəb dərsliklərinin məzmununun dəyişdirilməsinə baxmayaraq, bu təhsil pilləsində yeni təhsil standartları və proqramlarının tətbiqinə, təhsil sisteminin humanistləşdirilməsinə, yeni təlim texnologiyalarının, avadanlıqlarının və yanaşmaların məktəbə gətirilməsinə, orta təhsildə vahid informasiya sistemləri və şəbəkələrinin yaradılmasına, məktəb və müəllim nüfuzunun yüksəldilməsinə, pedaqoji fəaliyyətin stimullaşdırılmasına böyük ehtiyac var.

Kurikulum sistemində nəzərdə tutulan vacib məsələlərdən biri də fəndaxili əlaqələrdən istifadə edilməsidir. Tarix fənni üzrə fəndaxili əlaqə həm Ümumi tarix, həm də Azərbaycan tarixi üzrə nəzərdə tutularaq istifadə edilə bilər.

V-IX siniflərin Azərbaycan tarixi kurslarında fəndaxili əlaqələrdən istifadə edilməsi və ya bu işin sistemi əslində tarixin tədris edildiyi siniflərdə şagirdlərin bu fənlə bağlı aldığı bilikləri tarix dərsindən mənimsəməsi üçün və uzunmüddətli yadda saxlanılması üçün zəmin rolunu oynayır. Belə ki, dərslikdə hər hansı bir fəsildəki mövzunun öyrənmə şagird, bu mövzunun üzərindən xeyli zaman keçdikdən sonra çətin ki, bu mövzu ilə bağlı veriləcək suala cavab verə bilsin. Təbii ki, əgər təkrar edilməyibsə. Əksər şagirdlər çox güman ki, təkrarla məşğul olmadıqlarından keçilən mövzunun məzmununu unudur. Məhz kurikulum sistemində nəzərdə tutulan "fəndaxili əlaqə" məsələsi qarşıya çıxacaq bu cür arzuolunmaz halların aradan qaldırılması

məqsədini güdür. Digər fənlərdə olduğu kimi Azərbaycan tarixi fənnində də mövzular arasında gözə görünməyən, lakin hiss edilən əlaqə vardır. Şagird ilk növbədə bu əlaqəni araşdırdıqdan sonra mövzunu yadda saxlamağa çalışsa daha yaxşı nəticə əldə etmiş olar. Bunun üçünsə müəllimin müdaxiləedici, təhrikedici rolunun olması danılmaz faktdır [2,164].

Proses və qanunauyğunluqların birbaşa əlaqəsi dərsdə müəllimin rəhbərliyi altında şagirdlər tərəfindən məzmununun iqtisadi, sosial-siyasi, tarixi-mədəni və digər aspektləri üzrə qurulur. Bu halda bir neçə dərs sisteminə malik olur və burada sadaladığımız əlamətlər nəzərdə tutulur [3,335].

1. Bir-birini ardıcıl əvəz edən tarixi dövrlərdə cəmiyyətin iqtisadi həyatı ilə bağlı məsələlər;

2. Cəmiyyətin sosial-siyasi tərəfləri;

3. Tarixi-mədəni məzmunun və s

Hər bir tarixi dairədə sosial-siyasi sistemdəki, daxili və xarici siyasətdəki, siyasi təsisatda olan dəyişikliklər, ictimai-iqtisadi formasiyalardan maddi nemətlərin bölünməsi uğrunda gedən mübarizə öyrənilir.

Hər bir dərs tipindən asılı olaraq müəyyən quruluşa malikdir. Onun mənəvi elementləri aşağıdakılardır:

1) Mövcud dərsin məzmunu ilə məntiqi surətdə bağlı olan əvvəlki tədris materialının mənimsənilməsinin yoxlanılması

2) Yeni materiala keçid

3) Yeni materialdan öyrənilməsi

4) Möhkəmləndirmə

5) Ev tapşırığı

Dərsin quruluş elementləri mütəhərrikdir: biliyin yoxlanılması (yəni şagirdlərin sorğu-sual edilməsi) yeni materialın keçilməsinə qədər izahat prosesində baş verə bilər və ya mövcud dərsdə tamamilə həyata keçirilməyə bilər.

Məsələn: Azərbaycan tarixi kursu üzrə XVIII əsrin ortaları müddəti Azərbaycanın bütün hissəsində xanlıqların yaranması dövrüdür. Və bu mövzu böyükdür. Bütöv Azərbaycanda xanlıqlar dövrünün bərqərar olması dərslərindəki mövzular arasındakı əlaqəni tam çılpaqlığı ilə ortaya qoyur. Şagird Şəki xanlığı, Qarabağ xanlığı, Gəncə xanlığının yaranması haqqında məlumatlandırdıqdan sonra bu xanlıqlarda baş verən hadisələrin bir-biri ilə qarşılıqlı əlaqədə olaraq inkişaf etməsini də nəzərdən qaçırmayacaqdır. Yəni bir mövzuda baş verən hadisələrin inkişafı bir sonrakı mövzudakı hadisələrin irəliləyişi ilə əlaqədardır. Hər bir növbəti dərsin məzmunu əvvəlki materialın şagirdlər tərəfindən aydın şəkildə başa düşülməsindən sonra mənimsənilməsi daha doğru olar. Bu səbəbdən də mövzunun bütün dərslərini sorğu-sualla başlamaq məsləhətdir.

Təlimin struktur elementlərinin ardıcıllığı bu şəkildədir:

a) dərsin məqsədi müəyyən edilməli;

b) yeni materialın öyrənilməsi;

c) təlim materialını canlandıraraq nümunə əsasında tapşırıqları yerinə yetirməli;

ç) mənimsənilən təlim materialının yaradıcılıq formasında tətbiq edilməsi;

d) təlimin nəticəsinə nəzarət edilməlidir.

Beləliklə, təlim sistemində fənndaxili əlaqədən istifadə edilməsi, tətbiqi şagirdin dərsi daha yaxşı mənimsəməsinə, dərk etməsinə, analiz-sintez aparmasına, müqayisə etməsinə, iki və daha çox mövzu arasında müqayisə ediləcək predmet tapmasına, bununla da yaradıcılıq və axtarıcılıq qabiliyyətini inkişaf etdirməsinə şərait yaradılır.

**Problemin aktuallığı.** Müasir təhsil sistemi fəallaşan dünyanın tələblərinə cavab verən, rəqabətədavamlı, xüsusi istedada malik şəxslərin yetişdirilməsini tələb edir. Bu tələblərə əsasən məktəblərə tədris prosesinin kurikulum sisteminə əsasən fəndaxili əlaqədən istifadə olunmasına nail ola bilərik. Təlim prosesində fəndaxili əlaqə vacib əhəmiyyət kəsb etdiyindən mühüm tələb kimi aktuallığa malikdir.

**Problemin yeniliyi.** Azərbaycan tarixi fənninin tədrisində fənndaxili əlaqənin imkanları araşdırılmış, ümumiləşdirilmiş və analitik təhlillə dəyərləndirilmişdir.

**Problemin nəzəri əhəmiyyəti.** Məqalənin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, fənndaxili əlaqə prosesinin kurikulum sistemində tutduğu yeri araşdıran zaman əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin məzmununu nəzəri cəhətdən zənginləşdirir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə ümumtəhsil məktəblərinin Azərbaycan tarixi kursunun tədrisində fəndaxili əlaqədən istifadənin şərhinin verilməsi təlim, tədris və tərbiyə prosesinə öz müsbət təsirini göstərəcək və orta məktəbdə bu fənnin tədrisi ilə məşğul olan müəllimlər öz fəaliyyətləri zamanı məqalədən istifadə edərək yararlanacaqlar.

**ƏDƏBİYYAT**

1. "Azərbaycan müəllimi" qəz., 2012, 30 dekabr
2. Məktəb kurikulumları. Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. 2015.
3. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2014.
4. Новиков П.Н. Межпредметные связи как средство реализации принципов дидактики в учебном процессе техникумов профессионально-технического образования. М., 1977.
5. Ümumtəhsil məktəblərinin V-XI siniflər üçün tarix proqramları. Bakı, 2000.
6. "525-ci qəzet", 2014, 14 noyabr

**С. Шюкурова**

**ПОСТАНОВКА В МАТЕРИАЛАХ КУРРИКУЛУМА, В ПРОГРАММАХ, В УЧЕБНИКАХ, В УЧЕБНЫХ ПОСОБИЯХ ПРОБЛЕМЫ ПОЛЬЗОВАНИЯ ВНУТРИПРЕДМЕТНЫМИ СВЯЗЯМИ**

***РЕЗЮМЕ***

В статье приведена ясность к вопросу постановки в материалах куррикулума, в программах, в учебниках, в учебных пособиях проблемы пользования внутрипредметными связями. В статье на передний план выдвинут вопрос роли принципа внутрипредметной связи в процессе изучения, освоения учениками урока.

**S. Shyukurova**

**SETTING OF PROBLEM OF USE FROM INTRA-SUBJECT RELATIONS IN CURRICULUM MATERIAL, PROGRAMS, TEXTBOOKS AND LESSON MATERIALS**

***SUMMARY***

Matter of setting of problem of use from intra-subject relations in curriculum material, programs, textbook and lesson materials was clarified in the article. Moreover, problem of the level of role of the principle of intra-subject relations in studying and appropriation of lessons by students was foreground and explained in this article.

**Redaksiyaya daxil olub:** 15.02.2018